Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Dövrünə güzgü tutan Əli Nəzmi

**Əli Nəzminin 140 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Şəhla Əliyeva**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Dövrünə güzgü tutan Əli Nəzmi:** Əli Nəzminin 140 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F.Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.-22 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Klassiklərimiz mətbuatı insanların ruhunu təzələyən səhər mehi, cəmiyyətin hərəkətverici qüvvələrindən biri, dövrün aynası, xalqın görən gözü, eşidən qulağı və s. epitetlərlə təqdim və təqdir etmişlər. Doğrudan da, ümummilli mədəniyyətin tərkib hissəsi olan mətbuat mənsub olduğu xalqın həyata baxışlarını, məişət tərzini, ictimai-mədəni proseslərə sosial-psixoloji münasibətlərini özündə əks etdirən, eyni zamanda onun hər hansı məsələyə münasibətinin formalaşmasında əhəmiyyətli rol oynayan bir vasitədir. Ona görə mətbuatın elmi-nəzəri, metodiki və təcrübi baxımdan dərki və inkişaf mərhələlərinin şəhri də diqqət mərkəzində olmuş, bu barədə şeir, məqalə və kitablar yazılmış bir-birindən maraqlı fikirlər söylənmişdir. İş elə gətirmişdir ki, mətbuata, onun əhəmiyyətinə dair ilk qiymət verib fikir söyləyən qələm əhli elə şair, yazıçı, publisistlər olmuşlar. Milli mətbuat tariximizin keçdiyi yolu araşdıran, onun ümumi mənzərəsini canlandırmağa çalışmaq təşəbbüsü ilə qələmə salınanlar da mətbuat və ədəbiyyat xadimləri olmuşlar. XX əsr Azərbaycan ədəbi fikrinin görkəmli şəxsiyyətləri içərisində satirik şair Əli Nəzminin adı iftixarla çəkilənlərdəndir. Dövrünün ən qüdrətli yazarları sayılan Əli Nəzminin bu il 140 illik yubileyi qeyd olunur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissədə onun həyatından, II hissədə isə yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Əli Nəzmi (Əli Məhəmməd oğlu Məmmədzadə) 1878-ci ildə Gəncə şəhəri yaxınlığındakı Sarov kəndində yoxsul ailədə doğulmuşdur. İbtidai təhsilini mollaxanada almışdır. Sonra rus-tatar məktəbində oxumuşdur. Atasının vəfatından sonra güzəranı ağır keçdiyindən doğma yurdu tərk edib Orta Asiyanın Buxara və Səmərqənd şəhərində iki il tacir dükanında şagird olmuşdur. Mütaliə yolu ilə təhsilini artırmış, klassik Şərq ədəbiyyatını dərindən öyrənmişdir. “Bikəs” təxəllüsü ilə şeirlər də yazmışdır.

Ədəbi fəaliyyətə 1904-cü ildə “Şərqi-rus” qəzetində dərc etdirdiyi “Kənddə ibtida” adlı ilk şeiri ilə başlamışdır. 1905-1907-ci illərin inqilabi hərəkatı onun yaradıcılığında dönüş yaratmışdır. Satirik şeirlərini “Məşədi Sijimqulu”, “Kefsiz” və s. gizli imzalarla çap etdirmişdir. “Molla Nəsrəddin” ədəbi məktəbinin görkəmli nümayəndəsi kimi tanınmışdır. Felyeton və satirik şeirləri satirik-yumoristik jurnallarda, xüsusən “Molla Nəsrəddin” jurnalında müntəzəm çap olunmuşdur. “İstibdad”, “Qorxuram”, “Olacaqmı”, “Sizə nə”, “Ey fuqəra”, “Od tutub odlandı vətən” və s. şeirlərində mütləqiyyətə, müstəmləkəçilik siyasətinə, dini fanatizmə və geriliyə qarşı azadlıq ideyalarını təbliğ edirdi. Doğma kəndində təqib olunduğuna görə ailəliklə Gəncəyə köçmüş, burada xırda ticarətlə məşğul olmuşdur. Eyni zamanda öz satirik şeirlərini gizli imzalarla (“A.S.Əlidəyənəkli”, “Həcamətverdi”, “Sərsəri”, “Qanacaqsız”, “Şəmşir”, “Şəmşirək”, “Peşiman qoca”, “Gəncə Cavanları”, “Müt-şair”, “Şallax”, “Kav-mahi”, “Qoca zığ-zığ”, “Papiros-çəkən” və s.) çap etdirirdi. Azərbaycanda Sovet hakimiyyəti yarandığı ilk gündən yeni cəmiyyətin tərəfdarı kimi fəaliyyət göstərmişdir. O, Gəncə məktəblərində müəllimlik etmiş, sonra “Yeni Gəncə” qəzeti redaksiyasında çalışmış

(1924-1926), Bakıya köçüb “Kəndli” qəzeti və “Molla Nəsrəddin” jurnalı redaksiyasında məsul katib olmuşdur. Sonra təqaüdə çıxmışdır, həm də “Yeni yol”, “Kommunist” qəzeti redaksiyalarında müxtəlif vəzifələrdə işləmişdir. İkinci Dünya müharibəsi dövründə alman faşizminə qarşı kəskin satirik əsərlərlə çıxış etmişdir. Nizami, Firdovsi, Krılov kimi sənətkarlardan tərcümələr etmiş, eyni zamanda qiymətli ədəbi-tənqidi məqalələr yazmışdır. “Keçmiş günlər” (1944) adlı mənzum xatirəsi XX əsr Azərbaycan ədəbiyyatı və mətbuatını öyrənmək üçün maraqlıdır. 1946-cı il yanvarın 4-də Bakıda vəfat etmişdir.

Görkəmli şairimiz Əli Nəzminin anadan olmasının 140 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, oxucularla söhbət, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bu şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq və eyni zamanda oxucularda mütaliə vərdişi aşılamaq məqsədi daşıyır. Əli Nəzminin 140 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Elm və mədəniyyət təbliğatçısı”, “İkinci Sabirimiz Əli Nəzmi”, “Molla Nəsrəddinçi Əli Nəzmi”, “Keçmiş günlər” in işıqlı insanı Əli Nəzmi”, “Böyük Sabirin məslək dostu”, “Bəxti gətirən “Molla Nəsrəddinçi”, “Dövrünə güzgü tutan Əli Nəzmi” və s.

# Kitab sərgisi


















Sevilən şairimiz Əli Nəzminin anadan olmasının 140 illik yubileyi ilə əlaqədar olaraq, *“Maarifçilik ideyası ilə aləmi nurlandıran şair”* adlı **“dəyirmi masa”** təşkil etmək olar. Dəyirmi masa zamanı tələbələr Əli Nəzminin həyatdakı və poeziya aləmindəki rolu, mövqeyindən bəhs edə bilərlər. *Kitabxanaçı:* Ə.Nəzmi 1878-ci ildə Gəncənin Sərab kəndində kasıb bir ailədə dünyaya gəlib. Ailənin ilk oğul övladının dünyaya gəlməsi münasibətilə atası Məhəmməd kişi yeganə dövləti olan bağını sataraq Məşədə ziyarətə səfər etmiş və bu səfərlə də ailə daha da müflisləşmişdir. Əlinin 11 yaşı yenicə tamam olanda atası rəhmətə gedib və elə həmin gündən ailənin ağırlığı onun üzərinə düşüb. Mollaxanada dərsdən sonra Əli meşədən odun şələsi yığıb satmaqla ailəni dolandırmaq üçün anasına kömək edirdi.

1898-ci ildə Buxaraya gedən Əli, orada yaxın qohumlarından birinin dükanında köməkçi kimi işləyərək ailəsinə bir parça çörək qazanmışdı. Dükana tez-tez bir yəhudi mühəndis gəlirmiş. Əli ilə sözü tutan bu mühəndis Əliyə oxumaq üçün maraqlı kitablar, qəzetlər gətirərək onu elmə həvəsləndirib. Ə. Nəzminin günü-güzəranı çox ağır keçsə də, onda ədəbiyyata maraq oyanır və ağır güzaranını nəzmə çəkərək, ara-sıra şeirlər yazmağa başlayıb.

İlk mətbu əsəri “Şərqi-rus”da çap olunan Əli Nəzminin ilk yaradıcılığı haqqında tədqiqatçıların fikri belədir ki; “onun 1901-ci idən başlayaraq şeirlər yazdığı və hətta bundan bir neçə il əvvəl Orta Asiyadan öz dostlarına və məktəb yoldaşlarına mənzum məktublar göndərdiyi məlumdur”. Bu haqda şair özü də sonralar xatirələrində yazırdı ki: “Mən, qürbətdə mütəəssir olduqca vətəndəki məktəb arkadaşlarıma məktub yazaraq və bəzən də təəssüratımı onlara daha kəskin anlatmaq üçün qəzələ oxşar, vəzni və qafiyəsi pozuq şeirlər yazırdım”.

Əli Nəzmi ailəsini dolandırmaq üçün Buxara və Səmərqəndə gedərək ticarətlə məşğul olurdu. Belə səfərlərdən biri də 1904-cü ildə Tiflisə oldu. Lakin burada o yalnız ticarətlə maraqlanmadı. Həm də yenicə çap olunan "Şərqi-rus"un redaksiyasına gəlib və M.Şahtaxtinski ilə tanış olmuşdur. Bu tanışlıqdan sonra qəzetdə ara-sıra şeir və məqalələri çap olunmuşdur. Növbəti gəlişlərindən birində elə həmin redaksiyada Mirzə Cəlil və Ö.F.Nemanzadə ilə tanışlığı sonralar möhkəm dostluğa çevrilib. O, "Molla Nəsrəddin"də ilk dəfə 1906-cı ildə "Əlidəyənəkli" imzası ilə kiçik bir məktubla başlayıb.
*I iştirakçı:* Lakin Ə.Nəzmi "Molla Nəsrədddin"də ilk olaraq bir neçə mollanəsrəddinçidən fərqli olaraq, nə şeir, nə də felyeton ilə çıxış edib. Onun ilk çıxışları məktubları olub. Beləliklə, jurnalla yaxınlıq edən gənc onun məqsədini, məramını daha yaxından başa düşməyə başlayıbmış və sonralar nəyin ki, jurnalın daimi yazarına çevrilmiş, hətta Mirzə Cəlil onu dahi Sabirlə müqayisə edərək deyirdi: "Molla Nəsrəddin"ə yaraşan şivənin məzəliliyi və duzluluğunda, məharət və lətafətdə Sabirə yavuq gələn və ona əvəz olan – birinci "Məşədi Sijimqulu", "Kefsiz" olubdu". Mirzə Cəlilin bu fikrini sonralar ədəbiyyatşünas alim Mir Cəlal təsdiq edərək yazırdı: "İmza atmasa Sabir ilə Əli Nəzminin şeirlərini biri-birindən ayırmaq çox çətindir". Digər tədqiqatçların fikrincə, də M.Ə.Sabirin vəfatından sonra istər "Molla Nəsrəddin"də, istərsə də "Məzəli", "Tuti", "Zənbur", "Babayi-Əmir" və s kimi satirik jurnallarda əsasən "Şəmşirək", "Şəmşir", "Sijimqulu", "Kefsiz", "Məşədi Sijimqulu", "Sərsəri", "Şallax" imzaları ilə ən yaxşı şeirləri yazan Əli Nəzmi olmuşdur. Bunlarla yanaşı Əli Nəzmi "Məlimat", "Tərəqqi", "Yeni irşad", "Günəş", "Qardaş köməyi" kimi qəzet və jurnallarla da əməkdaşlıq etmişdir. Bu mətbu orqanlarındakı çıxışı bir daha sübut edir ki, Ə.Nəzmi təkcə

satirik şeirlər deyil, eyni zamanda nəsrlə də maraqlanmış, publisistik məqalələr və felyetonlar da yazmışdır.

*II iştirakçı:* 1914-cü ildə Əli Nəzmi "Məzəli" satirik jurnalının redaktoru Haşım bəy Vəzirovdan bir məktub aldı. Redaktor onu jurnalla əməkdaşlıq etməyə dəvət edirdi. Əli Nəzmi bu dəvəti qəbul edərək "Məzəli" ilə də əməkdaşlığa başladı. Buradakı ilk "Pul" adlı satirası ictimaiyyət arasında böyük rəğbətlə qarşılandı. Bunu Haşım bəy də qiymətləndirərək şairi 20 manat pulla mükafatlandırmışdır. Tədqiqatçı alim Firidun Hüseynovun yazdığına görə, "bu, on ildən bəri qəzet və jurnallarda yüzlərlə əsəri çap olunan şairin aldığı birinci zəhmət haqqı olub".

Sabir ədəbi məktəbi, əsasən də 1906-1916-cı illər arasındakı on il müddətində ən yüksək mərhələsini yaşayırdı və bu məktəbin ən istedadlı davamçıları yetişməkdə idi. Sabir kimi nəhəng bir sənətkarla ünsiyyətdə olmaq, ondan öyrənmək, bəhrələnmək bu məktəbin davamçlarının tale qismətinə düşən bir xoşbəxtlik idi ki, Əli Nəzmiyə də qismət olmuşdu.

"Molla Nəsrəddin" jurnalının və özünün yaradıclığının ən məhsuldar dövründə, yəni 1916-cı ildə Ə.Nəzmi Gəncə şəhərinə köçdü. Tədqiqatçı alim Qulam Məmmədlinin yazdığına görə, 1916-cı ildə Mirzə Cəlil Əli Nəzmiyə məktub yazaraq onu Tiflisə dəvət edib. Ə.Nəzmi isə yeddi nəfərdən ibarət bir ailə ilə Tiflisdə dolana bilməyəcəyini nəzərə alaraq getməyib və Mirzə Cəlildən üzr istəyib.

1920-21-ci illərdə Gəncədə müəllimlər kursunda oxumaqla yanaşı, müəllimlik edən Ə.Nəzmi ara-sıra mətbuatda da çap olunurdu. 1922-ci ildə "Molla Nəsrəddin"in Bakıda çap olunan dördüncü sayındakı kiçik bir elan onun diqqətini cəlb etdi. "Kefsizə. Neçə il ayrı düşəndən sonra yada salırıq yoldaşımız və ikinci Sabirimiz Kefsizi (Məşədi Sijimqulunu). Harada olduğunu bilmədiyimiz üçün ondan bir xəbər tuta bilmədik.

Ümidvarıq ki, tez vəqtdə öz lətafətli şeirləri ilə məcmuəmizi zinətləndirəcəkdir”.

Beləliklə, yenidən Ə.Nəzminin imzası “Molla Nəsrəddin”də tez-tez görünməyə başladı. Bu zaman Gəncədə yaşayan Əli Nəzmi həm də “Yeni Gəncə “qəzetində çalışırdı. 1926-cı ildə qəzet bağlandı. İşsiz qalan Ə.Nəzmi üz tutdu Bakıya. Burada bir neçə qəzet və jurnallarla əməkdaşlıq edən Ə.Nəzmi yenidən onun üçün çox doğma olan “Mola Nəsrəddin”ə qayıtmış və jurnal bağlanana qədər burada katiblik etmişdir. Ə.Nəzmi yenidən “Molla Nəsrəddin”ə qayıtdıqdan sonra “İnqilab və mədəniyyət” jurnalında çap etdirdiyi “Bugünkü ədəbiyyatımız haqqında” ilk məqaləsini də özünə ustad sandığı Mirzə Cəlil yaradıclığına həsr etmişdir. 1927-ci ildə Ə.Nəzmi “Sijimqulunamə” adlı “Azərnəşr”də çap etdirdiyi əsərini də ustadının xeyir-duası ilə (əsərə Mirzə Cəlil müqəddimə yazıb) oxucularının ixtiyarına vermişdir.

Sovet dövründə “Kommunist”, “Yeni yol”, “Kəndli qəzeti” mətbu orqanlarında çalışan şair bir neçə kitablarını da çap etdirə bilib. Ömrünün son illərində isə “Molla Nəsrəddin” jurnalının nəşri tarixi ilə bağlı öz həyatı və müasirləri haqqında maraqlı məlumatlar verən iri həcimli xatirələrini yazıb. “Keçmiş günlər” adlı bu mənzum xatirə “XX əsr azərbaycan ədəbiyyatı və mətbuatı tarixinin bəzi məsələlərini öyrənmək üçün də qiymətli mənbələrdən biridir”.

Əli Nəzmi “Molla Nəsrəddin” jurnalında Sabir kimi, fəal iştirak edən şairlərdən olmuşdur. C.Məmmədquluzadə şairin bu dövrdəki fəaliyyəti haqqında belə yazır: “O vaxt biz məcmuəmizin 12-ci nömrəsində “Quli-biyabani” sərlövhəli bir məqalə ilə varlılarımıza tənəli bir xitab dərc etdik. Ta ki ondan bir neçə vaxt sonra Sabirin “Təmeyi-nahar” ı bizim səsimizə səs verdi. Burada “Məşədi Sijimqulu”, “Kefsiz” də meydana çıxdı və “pənah Allaha” – deyib, Sabirin “Tömeyi-nahar”ına cavab

olaraq “Çayda çapan qardaşım, ağlama, ağları gör” mətləli şeirini göndərdi. Məşədi Sijimqulunu ilk dəfə məcmuəmizdə nəzm ilə danışdıran, onun təbii şeirini büruzə vərən haman “Tömeyi-nahar” olubdur... Haman M.Sijimqulu ki, öz dediyinə görə “Molla Nəsrəddin” in bu vaxtadək bircə nömrəsini də başdan-ayağa oxumamış keçirməyibdir. Sabirin bundan da qiymətli qeyri əşarına mütəəssir olmayıb, -nə qədər ki, “Tömeyi-nahar” ına olub, ona bir neçə aydan sonra cavab vərməyi özünə borc bilibdir.

Nədir burada şairi mütəəssir edən? Əlbəttə ki, Mollanın mövzusudur”.

Əli Nəzmi şeirə 1903-cü ildən başlasa da, “Molla Nəsrəddin” də ilk dəfə nəsr ilə, felyetonları ilə iştirak etmişdir. Jurnalın 11-ci nömrəsində Əli Nəzminin “Əlidəyənəkli” imzası ilə bir kiçik məktubu dərc olunmuşdur. Burada gəncəli quşbaz Hacı Hüseynin oğlu ilə rəftarından bəhs edilir. Hacının oğlu ağacdan dolaşa tutmaq istəyəndə yıxılır, qıçı sınır. Atası bu əhvalatdan xəbər tutub gəlir, oğlundan ilk soruşduğu bu olur: “– Oğul, necəsən? – Quş cibində ölməyib ki? Sağdırmı?”

Jurnalın 14-cü nömrəsində Əli Nəzmi bir kitab-firuşun “Molla Nəsrəddin” dən şikayətini yazmışdı: “Ey Molla Nəsrəddin kişi, bəs deyilmi bu qədər mərdiməzarlıq?... Üç ildir ki, məndə olan kitablar heç satılmır...” Cameüd-dəvat – 50 cild, “Təbiri-xab-30 cild...”.

Müəllif bu məktubunda jurnalın mövhumata və mövhumat kitablarına qarşı ardıcıl, şiddətli mübarizəsini nəzərdə tutur. İstər bu məktubda, istərsə də quşbaz oğlunun əhvalatında müəllifin qələmindəki məharət, incəlik və satira aydın hiss olunmaqdadır. Əli Nəzmi də Sabir kimi “Molla Nəsrəddin” in vəzifəsini, məqsədini çox gözəl başa düşmüşdü. Bu jurnal həm məqsədi, həm də dili, üslubu ilə xalqa yaxın olan, xalqın ruhunu ifadə edən yazılar tələb edirdi. Əli Nəzmi də belə yazıların müəllifi

idi. Onun on-on beş sətirdə yazdığı duzlu məkrub "Molla Nəsrəddin" ə bütün bir ictimai lövhə verirdi. "Cavan ilə Hacı Ağanın şirin söhbəti" adlı məktubunda köhnəpərəst bir varlının xeyir işlərə münasibətini təsvir edirdi. Təsvir ancaq mükalimələrdən ibarətdir. Bir gənc maarifçinin sualına cavab vərən Hacının danışığı, onun simasını, şüurunu və mühakimə dairəsini müəyyən edirdi.

*III iştirakçı:* Əli Nəzmi jurnaldakı fəaliyyəti ilə şeirdə də məharət sahibi olduğunu isbat etdi. Demək olar ki, mövzu dairəsi etibarilə şair, Sabirdən seçilmirdi. Köhnəpərəst hacıları, kərbalayıları, istismarçıları, avam, nadan valideynləri, xalqı aldadan falçı, cindar və dərvişləri, Məhəmmədəli kimi şahları, xəsis və mənfəətpərəst "millət xadimləri" ni, "intelli-gentləri" həcv edən şeirlərində tamam Sabir ruhu vardır.

Sabir ədəbi məktəbi, xüsusilə 1906-1916-cı illər arasındakı on il müddətində ən yüksək mərhələsini yaşayırdı. Bu dövrdə zahirən yazıçıların işi asan idi, çünki mövzu, hədəf aydın, istiqamət məlum idi. Lakin bu zahirən belə görünürdü. Əslində sənətkarın işi bu vəziyyətdə daha çətin olur. Bir halda ki, eyni mövzu bir neçə yazıçı tərəfindən və dəfələrlə işlənir, o mövzunu təzədən və yeni bir qələm sahibinin işləməsi müstəsna güc, ilham və yenilik hissi tələb edir. Sabir kimi nəhəng bir sənətkarın qarşısına çıxmaq və onun işlədiyi mövzuları yazmaq əlbəttə ki, Əli Nəzmi üçün asan deyildi. Əli Nəzmi isə qorxmadı. Sabirlə olan məslək birliyi, onun da qələmini Sabir istiqamətinə uyğunlaşdırdı. Əli Nəzminin cəsarəti, qələmə aldığı mövzulara sərbəst və müstəqil yanaşması, təsvirlərində kitaba yox, həyata əsaslanması onun müvəffəqiyyətinə səbəb oldu.

Sabirin "Dilbər" şeiri yadımızdadır. Əli Nəzmi də eyni istehza üsulu ilə, eyni yığcamlıqla bir müftəxorun təsvirini verir. Şeirinə "Tapmaca" adı qoyur. Sabirin "Ey pul" şeiri məşhurdur. Ümumiyyətlə, pul bu dövrdə qələm sahiblərinin diqqətini cəlb

edən mövzu idi. Azərbaycanda kapitalizmin inkişafı əsrin ilk on illərində Bakıda sənayenin artması, kapitalın nəinki iqtisadi aləmdə, həm də məfkurə aləmində hakimlik etməsi ədəbiyyat xadimlərinə təsirsiz qala bilməzdi. Bu zaman pul hər şey idi! İstismar dünyasında pula "bütün müşkül işləri açan" deyirdilər. Əli Nəzmi bu həqiqəti "Pul" adlı müsəddəsində çox parlaq bir şəkildə ifadə etmişdir. Əgər böyük Sabir bir pulpərəst, köhnə görüşlü kişinin pula necə sitayiş etdiyini göstərmişsə, Əli Nəzminin şeirində pul hökmranlığının özü, bir ictimai azar kimi təsvir olunur. Şair göstərir ki, "hər quru cismə can", "sahibu-hök-mi-rəvan!, "zindeyi-cavidan", "amirü-şahu", "amiru-xan", "cinu, ləqəb, nişan"... hamısı ancaq puldur. Müəllifın satirası burada müstəsna şiddət kəsb etmişdir. Gülüş ilə yanaşı göz yaşı, istehza ilə yanaşı təəssüf, tənqid ilə yanaşı məyusluq! ("Ay zəhrimar pul! Ay gidi pul!") Əli Nəzminin şeirində pul, "məğlubedilməz" bir qüvvə kimi göstərilir. Bu acınacaqlı vəziyyətin səbəbləri şair üçün aydın olmasa da, fəlakətli nəticələri aydındır. Sabirin "Yat qal dala laylay" ruhunda yazılmış "Yat!" sərlövhəli şeirində şair müsəlman ətalətini satiraya tutur: "Dünya və axirət səadətinin yatmaqda" olduğunu düşünən və ömrünü yatmaqla keçirən, əsrin ən böyük ictimai hadisələrinə arı vızıltısı kimi baxan, dünyanı sarsıdıb kökündən dəyişən inqilablar ilə belə ayılmayan müsəlman Oblomovlarına qarşı bundan kəskin nə söz ola bilər? Şair cəhalət və qəflət yuxusuna dalmış həmvətənlərinə qəzəblənir. Bu qəzəb şairin ruhunda da, məntiqi silsilə təşkil edən məcazlarında da eyni şiddətdədir. Şair o qədər təsirlənmiş, o qədər həyəcanlanmışdır ki, sözünü sakit, soyuqluqla deyə bilmir; tənqid qəzəb ilə, gülüş kədər ilə qarışmış olur. Bu daxili həyəcan nəticəsində, bəzən özü hiss etmədən şəxsi kədərini bildirən misralar da yazır. Birinci beyt ilə ikinci beyti müqayisə edək:

Axşam namazını tələsik qıl, yubanma, yat!
Sol böyrün üstünə uzanıb, qurdalanma, yat!

Bu beyt nadan bir müsəlman mömini haqqında təsəvvür verir. Bu mömin yeyən, yatan, bir də kor-koranə ibadət edən qafil adamdır. Ancaq ikinci beyt tamam başqa təsəvvür verir:

Çoxdur məşəqqəti gözü açıqlığın, inan,
Açsan gözünü, qəm görəcəksən, oyanma, yat!

Bu çox mənalı, düşünməli beytdir. Bu sözü, bu xitabı avam möminə deməzlər. Bunu dərin düşünən, baxdığı, gördüyü hadisələri duya bilən, o zamanın bütün mütəfəkkirləri kimi kədərlənən, cəmiyyətin dərdini anlayan adama deyərlər. "Gözü açıqlıqda əzab duyan", "Gözünü açıb qəm görən" mömin deyildir. Burada şairin öz kədəri təzahürünü tapmışdır. Bu da yuxarıda dediyimiz kimi təsirdən, öz mövzusunu daxilən yaşamaqdan, ilhamın hərarətindən irəli gəlir. Ə.Nəzminin Sabiri xatırladan bir sıra şeirində bu hərarət açıq duyulur.

*IV iştirakçı:* "İrsi-pədər", "Gülürəm", "Yorğun bir baxış" şeirlərində də cəhalət və nadanlığın ibrətli mənzərələri vərilmişdir. Ancaq bu şeirlərin hər biri şəkil, əda və ümumən sənətkarlıq cəhətindən bir-birindən çox fərqlidir.

Əli Nəzminin bu dövrdəki şeirlərini oxuyanda köhnə dünyanın çirkin və acınacaqlı mənzərələri qəribə bir lövhə kimi təsəvvürdə canlanır. Bu yatanlara, saqqalı hənalı oğrulara, riyakar ruhanilərə, hiyləgər tacirlərə, şeytan ziyalılara baxdıqca gülür, həm də pərişan olursan. Sevinməli bir şey var ki, o da vaxtı ilə bu ictimai tüfeyliləri görən və ömrünü onlarla mübarizəyə sərf edən gözüaçıq, vətənpərəst, insanpərəst azadlıq sevən insanların varlığı və şərəfli əməyidir.

Əli Nəzminin əsərləri də belə bir əməyin məhsuludur. Şair, vətənində gördüyü cəhalət nümayəndələrindən əl çəkmir. Onların varlığı şairi rahat buraxmır, onları döyəcləmək, qəflət yuxusundan oyatmaq istəyir. Onların təkfiri və hücumu Əli Nəzmini qorxutmur. Şair əmindir ki, bü gün də olmasa, sabah

maarif işığı bütün qaranlıq guşələri işıqlandıracaq, günəş şüası yatanları oyadacaqdır. Belə bir sabahın əlamətlərini hətta Əli Nəzminin satira qırmancını dadan məşədi və kərbəlayıların özləri də duymuşlar. Onlar "zəmanənin dəyişdiyini" görməyə bilməzdilər. "Dəyişilir" sərlövhəli müxəmməsində şair bu duyğunu və bunun ilk təsirlərini qələmə almışdır: Deməli, ömrünü yatmaqda keçirən və bunu həyat bilən adamların hamısı olmasa da, az bir qismi iyirminci əsrin təbəddülatını duymuşdur. "Müftahülfərəc" şeirində səbrə ümid bağlayanları, "Ədəbiyyat, yaxud minacat" satirasında qəzetlərdən qorxub küyə düşən köhnəpərəstləri, "Məzəli" şeirində Məhəmmədəli şahı tənqid atəşinə tutan şair, kütlələri sayıq salmaq üçün bu mənfur simaların bütün çirkin əməllərini açıb göstərir, camaatda onlara qarşı nifrət oyatmağa cəhd edirdi.

Əli Nəzminin şeir dili sadə, səlis, üslubu rəvan, ilhamı qüvvətlidir. O, öz şeirlərində həmişə sadəliyi saxlamağa çalışmışdır. Onda kitab dilinin təsirləri azdır. Bu təsir olsa-olsa ciddi, lirik ruhlu şeirlərdədir. Satirasında danışıq dili və canlı ifadə nümunələri daha çoxdur. Əli Nəzminin təsvirləri yığcam və əhatəlidir. O, vəziyyəti, xasiyyət və lövhəni bir və ya bir neçə söz ilə təsvir etməyi bacarırdı.

Əli Nəzminin "Sijimqulunamə" sində toplanmış əsərlərindən başqa jurnal və qəzet səhifələrində də bir çox şeirləri vardır. "Zakavkazye" qəzetinin 24-cü sayında yazılmışdı: "Keçən ildən bəri Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" adlı müsəlman yumorist jurnalı öz oxucuları arasında getdikcə daha artıq maraq cəlb edirdi. Az zamanda nəşr edilməsinə baxmayaraq, redaktoru istedadlı Mirzə Cəlil Məmmədquluzadə olan bu jurnal yalnız Rusiyada deyil, hətta İranda və digər müsəlman ölkələrində də özünə geniş oxucu kütləsi qazanmışdı".

Tədqiqatçıların fikrincə, mollanəsrəddinçilər arasında nisbətən "bəxti gətirən" Əli Nəzmi olmuşdur. Çünki başqa

mollanəsrəddinçilərə nisbətən Əli Nəzmi hələ sağlığında əsərlərinin böyük bir hissəsinin nəşrinə nail olmuş, Ö.F.Nemanzadə kimi tez-tez sürgünlərə, həbslərə məruz qalmamış, Ə.Qəmküsar kimi faciəli həyat yaşamamış və s. Amma təəssüflər ki, onun da həyatı qələm, məslək yoldaşları olan mollanəsrəddinçilər kimi ehtiyac içində keçmiş, uşaqlığından ömrünün sonuna kimi bu ehtiyac onu tərk etməmişdi.

Ömrünün sonuna kimi qələmi yerə qoymayan Əli Nəzminin 1946-cı il yanvarın 1-də "Kommunist" qəzetində "Aradan çıxanların bazarı" adlı beynəlxaq mövzuda bir satirası çap olunub. Səhəri gün yanvarın 2-də qəflətən vəfat etmişdir. Məslək və amal dostları olan mollanəsrəddinçilər kimi o da Azərbaycan mətbuatı, ədəbiyyatı tarixində silinməz bir iz qoyub getməklə həmişəyaşar zirvəyə ucaldı.

Əli Nəzminin 140-illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *"Ağla, məndil al ələ, bu gün xəzandır, ey könül!"* adlı **şeir müsabiqəsidir**. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını, eləcə də "Seçilmiş əsərləri" ni məktəblilərə təqdim edir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər heyəti öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Ə. Nəzminin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır.

*Kitabxanaçının çıxışından sonra iştirakçılar ard-arda səhnəyə yaxınlaşır.*

***I iştirakçı:*** ***Türk qızına***

Baxmadı min il bütün
Qardaş, ata, ər sana.

Vermədilər çünki həqq
Məscidü mənbər sana.
Əzdi, gəmirdi səni
Din və müqəddəs kitab.
Boğdu, bitirdi bütün
Dərdü ələm, iztirab...

***II iştirakçı:*** **_Dil məsələsi_**

Dil var ikən, gəlin lisan deməyək,
Döndərib farscaya, zəban deməyək.
Hər kəsin var sözü, dili, ağızı,
Ağıza, and içək, dəhan deməyək.
Ərəbi göndərək öz evlərinə,
Farsa, qal bizdə mehman, deməyək.
Göz dururkən yazaq nə eyn, nə çeşm,
Gizlini gizlədib nəhan deməyək.
Var ikən türklərin oxu, yayı,
Kirpiyə tir, qaqşa kəman deməyək.
Ya günə ruz, ruzigar yelə,
Gecələr söyləyək, şəban deməyək.
Buğdaya kəndüm, arpaya dəxi co,
Əkməyə, suya ab, nan deməyək.
Şeir yazdıqda türkcəyi gözədək,
Mu tükə, ortaya miyan deməyək.
Birliyə ittihad, bilgiyə elm,
Qızlar, arvadlara zənan deməyək.
Dilçilər gülməsin bu təsfiyəyə,
Pozulub Kefsizin də başı, deyə.

***III iştirakçı***: **_Küsmüşəm_**

Başına and olsun, ay Molla, cahandan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan küsmüşəm.

Köç edib aləm təmamən yetdilər sərmənzilə,
Durmayır andırlara qalmış bizim bu qafilə.
Bir sürü çamuş təki dolmuş təmamən bir gölə,
Hərçi qışqırdım çıxan olmadı, ondan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan küsmüşəm...

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.*

Ziyalı şəxsiyyət, poeziyya vurğunu Əli Nəzminin həyatı və gördüyü təqdirəlayiq işləri oxuculara tanıtmaq və onları bu haqda bilgiləndirmək məqsədilə kitabxanada keçirilən tədbirlərdən biri də *"...Ataşlərə yandım, dedim, Allaha Təvəkkül!"* adlanan **ədəbi-bədii gecə** adlanır. Gecədə iştirak etmək üçün ədiblər, şair və araşdırmacılar, ədəbiyyat müəllimləri və ümumilikdə həqiqi "Molla Nəsrəddin şairi" Əli Nəzmi sevərlər dəvət edilir. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecə şagirdlərin ifasında şairin sözlərinə bəstələnmiş mahnılarla açılır. Gözəl ovqatdan sonra aparıcılar səhnəyə yaxınlaşırlar.

**I aparıcı:** Əli Nəzmi ömrünün əlli ilini bədii yaradıcılıqla məşğul olmuş, Mirzə Cəlil, Sabir kimi ömrünü vətənin tərəqqisinə, mədəniyyət və maarifin çiçəklənməsinə həsr etmişdir. O, Sabirin vəfatından sonra ikinci Sabirimiz oldu və onun yerini boş qoymadı. "Məşədi Sijimqulu", "Kefsiz"in zövq və səfalı, duzlu və məzəli şeirinin dalı heç vaxt kəsilmədi. Onun əsərlərində cəmiyyətdə kök salan sosial ziddiyyətlər, yoxsulluq, dini fanatizm, qadın azadlığı öz əksini tapırdı.

Mən annamıram, bilmirəm, insan nə deməkdir!
İnsan hələ insandı, bə heyvan nə deməkdir?..

**II aparıcı:** Çarizmin müstəbidliyi, azadlıqda olan millətlərə qarşı sonsuz zülm və işgəncəsi həssas təbiətli, iti və kəskin qələmli Əli Nəzminin ilk şeirlərindən tutmuş 1920-ci ilə qədərki bütün yaradıcılığında yanıqlı dillə təsvir olunur...

Vətən dərdi Əli Nəzminin inqilabdan əvvəlki bütün yaradıcılığına hopmuşdur. Xüsusilə, irtica illərində onun dünyagörüşünün, bəzən hətta bədbinlik notları sezilən şeirlərinin əsasında həmin ictimai kədər durmuşdur. "Bu da bir bahar" əsərində vətən yaraları ümidsiz, qəmli xallarla ifadə olunmuşdur:

Qırmızı qan ilə əlvandır bu gün lövhi-vətən,
Çəngi – istibdaddə qəbz olmada ruhi-vətən.
Turi-əğyar ilə dolmuş qəlbi-məcburi-vətən,
Kəştiyi-hifzü xilasə minməyir Nuhi-vətən,
Bilkəsa, qəlbi-vətəntək zəxmdar olmuş könül.

**I aparıcı:** Şair öz əsərlərində "dilbəri-hürriyyəti", yəni azadlıq dilbərini bir növ vəsv edib. Vətənin gələcək səadəti üçün onun hava və su kimi gərəkli olduğunu dönə-dönə, coşqun ilhamla təsvir edib. Azadlığa olan ümid ağacını barsız görəndə, xəzan yelləri şairin ümid ağacını vuranda, irticanın qara əlləri ilə hər şey alt-üst ediləndə Əli Nəzmi:

Od tutub odlandı vətən sərbəsər,
Olmadı övladi-vətən bəxtəvər -

Deyə xalqın həsrətini ürəyində qoyanları nifrətlə damğalayır. "Hürriyyətdən kim nə pay aparsın?" şeirində azadlıq arzu və istəyini təəssüflə yoğrulmuş misralarda ifadə edir:

Qreklərə hər nə desə çal çəpik,
Azərbaycan türklərinə vur təpik.
Uruslara mümtaziyyat, ağalıq,
Erməniyə imperiyada darğalıq!

**II aparıcı:** Milli ədəbiyyat və dilimizin varlığı, saflığı uğrunda kəskin məfkurə döyüşlərində Əli Nəzmi Mirzə Cəlilin ən yaxın silahdaşı, məsləkdaşı, ideya yoldaşı olmuşdur. Əli Nəzmi sovet dövründə də çoxlu mənzum hekayələr, satirik şeirlər yazmış, "Molla Nəısrəddin" əbədi məktəbinin tənqid, satira həqiqətpərəstlik, vətəndaşlıq cəsarəti ənənələrinə son nəfəsinədək sadiq qalmışdır. Böyük Vətən müharibəsi illərində yazdığı satiralar şairin ədəbi irsində ayrıca mərhələdir, bu əsərlər "Satira mərmiləri" adı ilə çap olunmuşdur. Onun keçdiyi mürəkkəb həyat və mübarizə yolu xalqa təmənnasız xidmət nümunəsidir.

**I aparıcı:** Əli Nəzmi hər şeydən əvvəl, inqilabçı-satirik şairdir. Yaradıcılığının başlıca ruhunu inqilab, azadlıq, vətən, xalq, beynəlmiləlçilk, insansevərlik, milli dil və mədəniyyət uğrunda inadlı mübarizə kimi bəşəri problemlər təşkil edir. Onun yaradıcılığı maarifpərvər şeirlərdən ictimai-inqilabi satiraya doğru inkişaf edib yüksəlmişdir.

Millətin halına bən hey gülürəm,
Xoş gəlir təbimə hər şey, gülürəm.

Gəh gülür, gəhi də ağlamsınıram;
Gəhi pöhrələnirəm, gəhi sınıram,
Qorxmayır, ürküyürəm, diskinirəm,
Çəkirəmah peyapey, gülürəm,
Xoş gəlir təbimə hər şey, gülürəm...

*Tədbirin sonunda Əli Nəzminin həyat və yaradıcılığına həsr edilmiş slayd təqdim olunur.*

# Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Seçilmiş əsərləri : poeziya. - Bakı : Şərq-Qərb, 2006. - 544 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Keçmiş günlər : xatirələr. - Bakı : Adiloğlu, 2006. - 176 s.

***Kitablarda***

Atanın oğluna nəsihəti ; Oğul və ata ; Məktəb uşağı : şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. - C. 2. - S. 45-52.

Məktəb uşağı ; Uşaqlar // Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası - Bakı : Elm, 1998. - 300 s. - kiril qrafikası ilə.

Örnək ; Dil məsələsi ; Dilimiz və b. : şeirlər // XX əsr Azərbaycan poeziyası antologiyası. I kitab : 1920-ci illərin poeziyası. - 2009. - S. 87-97.

Satiralar // XX əsr Azərbaycan şeiri antologiyası : (1905-1920-ci illər). - Bakı : Şərq-Qərb, 2005. - S.151-157. - (Ədəbiyyat antologiyaları).

***Haqqında***

**Abbaslı T.** Böyük Qələm əzmi : dövrünün uzun-uzun dərd-sər "nağıllar"ını üzün-üzün cəmləyib, müxtəsər nəzmlərə çəkmiş Əli Nəzmi // Mədəniyyət. - 2018. - 5 yanvar. - № 1. - S. 15.

**Əhmədov B.** Molla Nəsrəddin jurnalı və ədəbi hərəkatı // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Elm və təhsil, 2011. - C.1. - S. 55-65.

**Fərəcov S.** İkinci Sabirimiz : Əli Nəzmi "Molla Nəsrəddin" dərgisinin ən fəal yazarlarından olub // Mədəniyyət. - 2016. - 6 may. - № 35. - S. 13.

**Ömərov V.** Əli Nəzmi yaradıcılığında qadın müdafiəsi // Səs. - 2018. - 25 sentyabr. - № 180. - S. 15.

# Dövrünə güzgü tutan Əli Nəzmi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 54
Çapa imzalanmışdır: 22.10.2018
Tirajı:100
Pulsuz